Ədəbi etüdlərdə ədəbi ömürlər

AMEA N.Gəncəvi adına Ədəbiyyat İnstitutu filologiya elmləri doktoru Bəsirə Əzizəliyevanın elmi redaktorluğu, fəlsəfə doktoru İlham Məmmədlinin rəyi əsasında Azərbaycanın ictimai-siyasi, ədəbi-mədəni və elmi fikir tarixində mühüm yer tutan şəxsiyyətlərindən bəhs edən "Ədəbi etüdlər" (Avropa", 2018) adlı məqalələr toplusunu çapdan buraxıb. Kitabın müəllifi filologiya elmləri doktoru, ədəbiyyatşünas Baba Maqsud oğlu Babayevdir.

3 bölmədən ibarət olan toplunun "Siyasi xadim dramaturgiyamız haqqında" adlı ilk bölməsində "Heydər Əliyev və Azərbaycan teatrı" yazısı yer alıb. Kitabın belə bir bölmə ilə başlaması da əslində məntiqi reallığa söykənir. Çünki tarixən ədəbiyyat, elm və sənət, sənətkar məsələləri hər bir dövlətin humanitar siyasətinin əsasını təşkil etmişdir. Bu, həmçinin bizim ölkəmizdə də belədir və Ulu Öndər Heydər Əliyevin hakimiyyətdə olduğu ayrı-ayrı zaman kəsimlərində də tarix özü dediyimizə şahidlik edib. Elə bu amili biz Baba müəllimin yazdıqlarından da oxuyuruq: "1969-cu ildə Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bütün sahələrdə olduğu kimi teatr sahəsində də bir oyanış, dirçəliş yarandı. Teatra, ədəbiyyat, incəsənətə, onları yazıb-yaradanlara diqqət yetirən, qayğı göstərən, onlara hörmətlə yanaşan dövlət başçısının şəxsi səyi, bilavasitə köməyi nəticəsində mədəniyyətimizin bütün sahələri ilə yanaşı, teatrımız da uğurla inkişaf etməyə başladı". Bu fikirlərin ardınca B.Babayev konkret tarixi faktlardan birinin üzərinə gəlib davam edir:

"9 dekabr 1971-ci ildə Azərbaycan Teatr Cəmiyyətinin V Qurultayına təbrik məktubu göndərən MK katibi H.Əliyev nikbin əhval-ruhiyyə yaradan, xoş ovqat bəsləyən sözlərlə teatr fədailərini daha da ruhlandırmış, müdrik sözlərilə onlara stimul vermişdir: "Azərbaycan Teatr Cəmiyyəti tamaşaların ideya-bədii səviyyəsinin yüksəldilməsinə yardım edən səhnə əsərlərinin yaradılmasında, repertuarın düzgün formalaşmasında, teatr işçilərinin professional ustalığının nə nəzəri hazırlığının daha da artmasında teatrlara kömək etməli, yaradıcılıq əlaqələrinin inkişafına və qardaş xalqların teatr sənətinin təcrübəsi ilə qarşılıqlı zənginləşməyə yardım göstərməlidir" (səh.16).

Baba Babayev sözügedən məqaləsində Azərbaycan teatrının tarixinə və inkişaf səviyyəsinə aydınlıq gətirə-gətirə H.Əliyevin Azərbaycan teatr sənətinə göstərdiyi diqqət və qayğıkeşliyi də tarixi faktlara söykənməklə açıb göstərir. İstər 1969-1982-ci illərdəki fəaliyyəti dövründə, istərsə də 1993-2003-cü illərdə ikinci dəfə hakimiyyətdə olduğu zamanda onun humanitar sahəyə, eləcə də onun bir sahəsi olan teatr və incəsənətə göstərdiyi qayğının əyaniliyi ilə təqdim edir:

"25 iyun 2000-ci il Prezident H.Əliyev Xalq yazıçısı Elçinin "Ah, Paris... Paris..." tamaşasına baxmışdır. Rusiyanın Mədəniyyət nazirinin də iştirak etdiyi tamaşada prezident bildirib ki, "...mənim bu son illərdə Milli Dram Teatrının tamaşalarına gəlməyim çox vaxt bizim keçmiş tariximizə aid olan əsərlərlə tanışlıqdan ibarət olubdur".

1991-ci il hadisələrindən - yaxın keçmişimizdən bəhs edən pyesin tamaşasını yüksək qiymətləndirən prezident mənəviyyat məsələsindən bəhs edən əsərin müəllifi Elçinə və aktyorlara uğurlar diləmişdir" (səh.15).

Göründüyü kimi, Baba müəllim toxunduğu mövzunu faktoloji mənbələr əsasında yetərincə əhatə etmiş və ölkə başçısının mədəniyyətə, incəsənətə, ədəbiyyata qayğısını həmçinin dövlətin humanitar siyasətinin tərkib hissəsi kimi dəyərləndirə bilmişdir.

Kitabın "Ədəbi simalar haqqında etüdlər" və "Elm fədailərimiz" adlı 2-ci və 3-cü bölmələrində də müəllif demək olar ki, ədəbiyyat və elm xadimlərimizin həyat və fəaliyyətlərinin dövlətçiliyə xidmətlə bağlı olduğunu təbiiliklə əsaslandırmışdır. Ona görə ki, yazıçı (və şair) da, alim də xalqının övladı olmaqla bərabər həm də cəmiyyət həyatının fəal və aparıcı qüvvəsi, öndə gedən tarixi simalarıdır. Cəmiyyət isə yaşadığı ölkənin və təmsil olunduğu dövlətin ayrılmaz tərkib hissəsidir. Belə olan təqdirdə cəmiyyətin aparıcı qüvvəsi olan ziyalıların, o cümlədən alim və sənətkarların xalq həyatında, dövlət quruculuğunda və ölkənin inkişafında xidmət göstərmələri də tamamilə təbiidir. Bu prinsipdən yanaşdıqda dövlət başçısının da elm xadimlərinə, sənətkarlara, ədəbiyyata, mədəniyyətə, incəsənətə qayğısı da məhz bu qarşılıqlı əlaqənin, fəaliyyətin real inikasıdır. "Mehdi Hüseyn böyüklüyü" məqaləsindən aşağıdakı cümlələrə diqqət kəsilməklə bir daha dediyimizin təsdiqinə vararıq:

"1965-ci ilin 10 martında növbətçi müəllim bütün sinif şagirdlərini həyətəeyvanı yerdən az yuxarı olan, köhnə kolxoz idarəsinin binasında yerləşən səkkizillik məktəbimizin qarşısına topladı. Bahar gəlməsə də, aran yeri olduğundan ağaclar tez tumurcuqlamış, şaftalı, ərik, gilas ağacları ağ-çəhrayı çiçəklərə bürünmüş, söyüdlərin saçaq-saçaq salxımları başını aşağı salsa da göyərmişdi.

Böyük tənəffüsdü. Bütün məlumat xarakterli tədbirlər (əgər bunlara tədbir demək olarsa) bu vaxtlar keçirilərdi. Balaca toplantını məktəbin direktoru açdı və sözü sevimli, gənc ədəbiyyat müəllimimiz, sonralar respublikanın Əməkdar müəllimi olan Qəzənfər Abdullayevə verdi. İki-üç dəqiqə keçməmiş məlum oldu ki, görkəmli Azərbaycan nasiri, dramaturq, tənqidçi və publisisti, ictimai-siyasi xadim, SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin birinci katibi, SSRİ Ali Sovetinin deputatı, Azərbaycan KP MK-nın üzvü, Azərbaycan Yazıçılar İttifaqının sədri Mehdi Hüseynin ürəyi dayanıb. Bu xəbəri müəllimlər otağında radiodan eşidiblər. Ədəbiyyat müəllimimiz Mehdi Hüseynin yaradıcılığı haqqında danışıb qurtaranda göz yaşlarını gizlədə bilmədi" (səh.16).

Baba müəllim özünün məktəbli olduğu dövrdə kəndlərinin və məktəblərinin timsalında görkəmli yazıçımız Mehdi Hüseynin vəfatı xəbərinin ölkə ictimaiyyətində necə məyusluqla qarşılandığını xatirələrinə əsaslanaraq ərz edir. Ədəbiyyat müəlliminin göz yaşlarını gizlədə bilməməsi yazıçının ictimaiyyətdəki doğma mövqeyini-ölümünün kədərlə qarşılandığını göstərirsə, daşıdığı Xalq yazıçısı titulu ilə bərabər SSRİ Ali Sovetinin deputatı, Azərbaycan Yazıçılar İttifaqının sədri olması və s. kimi vəzifəmənsəb göstəriciləri də yazıçının ölkədəki, dövlət səviyyəsindəki ictimai-siyasi xadim kimi yüksək mövqeyini əks etdirir. Bütün bu kimin faktlar isə bir daha ədiblərin cəmiyyətin istəkli övladı, ölkənin sevimli vətəndaşı, dövlətin sayılıb-seçilən nüfuzlu siması olduğunu təsdiqləyir.

Baba Babayev M.Hüseynin 56 yaşında ikən həyatla vidalaşmasına da aydınlıq gətirir:

"Sən paxıl adamlarla əhatə olunmuşdun, Mehdi müəllim! Bu isə istedadlıların alın yazısı, qismət payıdır. Siz belələrinə fikir vermədiniz, sizi daha dərini hisslərlə istəyən, vicdanlı, ümuməbədi mənafe üçün hər çətinlik və məhrumiyyətlərə dözən, sinə gərən dostlarının (təəssüf ki, bu gün dostluq məfhumu vicdansızların yasaq olunmuş orbitindədir), sənin istəklin olanların əhatəsində olub hifz olundun. Nə yazıqlar ki, bu dostlar da səni son anda qoruya bilmədilər. Yazıçılar İttifaqına rəhbərlik etdiyin vaxt 10 martda keçirilən iclasda söylənilən haqsız iftira və böhtanlara məruz qaldın. Nadanların qəfil hücumuna ürəyinin gücü çatmadı..." (səh.17)

Bu fakt isə cəmiyyətdə hər zaman antipod ünsürlərin olduğunu göstərməklə və ziyalıların həyat və fəaliyyətlərinin bu cür qovğalarda keçməsini təsdiqləyir. Başqa sözlə, ədiblər öz həyat və yaradıcılıqları ilə cəmiyyətdə rastlanılan ədalətsizliklərlə mübarizə meydanına atılıblar və özlərinin xalqı, dövləti yolunda fədailik göstəriblər.

Kitabda gedən məqalələrdə diqqəti çəkən bir cəhət də Baba Babayevin publisistikaya xas olan şəxsi müşahidə və qənaətlərini paylaşmasıdır. Akademik İsa Həbibbəylidən bəhs etdiyi "Elmin böyük fədakarı" yazısında da belədir: "İsa müəllimi mən görməmişdim. Xeyli məqalə və kitablarını oxumuşdum. Doktorluq dissertasiyamda və məqalələrimdə onun nəzəri fikirlərindən sitatlar vermişdim. Azərbaycan ədəbiyyatşünaslığında Cəlilşünas alim kimi tanınırdı. Bir də 2012-ci ildə müdafiəm ərəfəsi avtoreferatımı tanınmış ədəbiyyatşünas, professor Gülşən Əliyevaya verib Naxçıvana - akademik İsa Həbibbəyliyə çatdırmasını xahiş etmişdim. Elmlər Akademiyasının böyük iclas zalında Nizami adına Ədəbiyyat İnstitutunun sabiq direktoru, mərhum akademik Bəkir Nəbiyevin 80 illik yubileyində aparıcı məruzəsini salondakı yüzlərlə iştirakçının biri kimi dinləmişdim. Elmi-nəzəri fikirlərlə əhatə olunmuş məruzəsi mənim yaddaşımda uzun müddət qalmaqla ürəyimdə cüssəli dağ oğluna heyranlığımı artırmışdı".




Əgər bu cümlələrdə Baba müəllim akademik İsa Həbibbəyli barəsində ümumi fikirlərini bölüşürsə, bundan sonrakı cümlələrdə isə onun haqqında şahidi olduğu və eyni zamanda başqalarından eşitdiyini də buraya əlavə edir: "Dünyanın qəribə işləri var. Tale elə gətirdi ki, əvvəllər işlədiyim Ədəbiyyat İnstitutuna qayıdanda İsa müəllim direktor idi. Hələ Naxçıvanda Pedaqoji İnstitutun rektoru olanda eşitmişdim ki, kişi adamdır, tələbənin, alimin, ziyalının qədrini biləndir. Əliəyriliyə, rüşvətxorluğa, süründürməçiliyə qarşı mübarizə aparanlardandır. Bu sözləri mənə Ərzurumdan Naxçıvana gələndə maşında yoldaşlıq etdiyim bir Şahbuzlu kişi danışmışdı və əslən Naxçıvandan olan sürücü də onun sözlərin təsdiq etmişdi" (səh. 135).

Fikir verin, Baba müəllim Türkiyə səfərindən qayıdarkən yolboyu eşitdiklərini folklor dilinə uyğun şəkildə nəql edir. Elə bu məqamda həm də bir haşiyə əlavə edim ki, bir Akademiya əməkdaşı olaraq mən də akademik İsa Həbibbəylinin kişi adam olduğunu, alimə, ziyalıya dəyər verdiyini dəfələrlə müşahidə etmişəm. Bir mahnıda oxunduğu kimi, "Elin sözü əvvəl-axır düz olar", bəli, Baba müəllimin yolboyu Şahbuzlu kişidən və naxçıvanlı sürücüdən eşitdikləri əslində elin sözü timsalındadır və əsl həqiqəti ifadə edir.

Bundan sonra İsa müəllimi ictimai-siyasi xadim, alim-pedaqoq kimi səciyyələndirən alim yazır: "İsa Həbibbəylinin həyatının çox böyük hissəsi Naxçıvan Dövlət Universitetinin adı ilə bağlıdır. Ciddi, dəyişməz mövqeyi, fəallığı, qeyri-adi işgüzarlığı, təşəbbüskarlığı və s. keyfiyyətlərini ömrünün ən qaygıkeş çağlarında elmlə yanaşı ictimai xadim, təşkilatçı pedaqoq kimi bu universitetin formalaşmasına həsr edibdir. Təbii ki, 2007-ci ildə nəşr etdirdiyi "Naxçıvan Dövlət Universiteti" adlı albom bu universitetin həyatını, tarixi yolunu, xarici əlaqələrini əks etdirməklə yanaşı, İsa müəllimin bu elm məkanına bəslədiyi dərin məhəbbətindən irəli gəlir. Naxçıvanın dağ kəndində doğulub, dağ kişilərinə məxsus bütöv xarakterə malik şair, publisist, tənqidçi, ədəbiyyatşünas, dövlət xadimi kimi bu gün ölkəmizdə çox tanınıbdır" (səh.135).

Bu minvalla filologiya elmləri doktoru Baba Babayev Elmin böyük fədakarı akademik İsa Həbibbəylinin elmi-ədəbi-ictimai aləmdəki mövqeyinin nümunəsində həm də əsl alimin dövlət səviyyəsindəki və cəmiyyət həyatındakı yüksək nüfuzunu açıb göstərir.

Kitabda yer alan digər məqalələrdə də B.Babayev bəhs açdığı alim və sənətkarların ömür yollarına işıq tutmuş, onların dövlət və xalq qarşısındakı mühüm məxsusi xidmətləri araşdırılaraq təhlil olunmuşdur. Bir sözlə, Baba Babayevin "Ədəbi etüdlər"indən əməlləri-əqidələri örnək olan şəxsiyyətlərin əbədi ömürləri boylanır.

Əlifoğlu ***Şakir filologiya üzrə fəlsəfə doktoru, dosent***

***2019***

